ƏDLİYYƏ

881 CAĞRI MƏRKƏZİ

www.justice.gov.az

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı

№ 10 (271) oktyabr 2026

Fərid Əhmədov TDT-nin ədliyyə nazirlərinin 3-cü iclasında iştirak edib

Oktyabrın 7-də Türkiyənin İstanbul şəhərində Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlərin ədliyyə nazirlərinin 3-cü iclası keçirilib.

Tədbirdə TDT-yə üzv dövlətlərin ədliyyə nazirləri və digər yüksək səviyyəli nümayəndələr iştirak ediblər.

İclasda TDT-yə üzv dövlətlərin ədliyyə qurumları arasında çoxtərəfli əməkdaşlığın inkişaf etdirilməsi, təcrübə mübadiləsinin genişləndirilməsi, müasir texnologiyaların tətbiqi və digər maraq doğuran məsələlərdən bəhs edilib.





Azərbaycan Respublikasının ədliyyə naziri Fərid Əhmədov iclasda çıxış edərək TDT-nin beynəlxalq proseslərdə artan rolunu vurğulayıb, ortaq tarix, mədəniyyət və dəyərlərin türk dövlətləri arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün möhkəm əsas yaratdığını bildirib. Ədliyyə sahəsində TDT çərçivəsində həyata keçirilən çoxtərəfli əməkdaşlıqdan danışan ədliyyə naziri Azərbaycanın təşəbbüsü ilə məhkəmə ekspertizası qurumlarının şəbəkəsinin yaradıldığını və bu ilin yazında Bakıda həmin şəbəkənin ilk toplantısının keçirildiyini qeyd edib.

Ədliyyə naziri TDT çərçivəsində mülki sahədə hüquqi yardım haqqında ilk çoxtərəfli müqavilə layihəsinin razılaşdırılmasının əhəmiyyətini vurğulayıb.

Fərid Əhmədov, həmçinin məhkəmə qərarlarının icrası və ədliyyə sahəsində rəqəmsal transformasiya ilə bağlı təşəbbüslər irəli sürüb. Nazir bu təşəbbüslərin TDT çərçivəsində ədliyyə sahəsində əməkdaşlığın dərinləşdirilməsinə, praktiki əlaqələrin gücləndirilməsinə və rəqəmsallaşmaya xidmət edəcəyini bildirib. Həmin təşəbbüslər dəstəklənib və onların həyata keçirilməsi üzrə konkret tədbirlər iclasın sonunda imzalanan Birgə Kommunikedə öz əksini tapıb.

İştirakçılar TDT-yə üzv dövlətlərin ədliyyə nazirliklərinin 4-cü iclasının Qırğız Respublikasında keçirilməsi barədə razılığa gəliblər.

Qeyd edək ki, TDT-yə üzv dövlətlərin ədliyyə nazirlərinin 1-ci iclası 2024-cü ildə Astanada, 2-ci iclas isə 2025-ci ildə Bakıda keçirilib.

Ədliyyə naziri Fərid Əhmədov Beynəlxalq Ədliyyə Sammitində iştirak edib

Azərbaycan Respublikasının ədliyyə naziri Fərid Əhmədov Türkiyə Respublikasının İstanbul şəhərində keçirilən Beynəlxalq Ədliyyə Sammitində iştirak edib.

Oktyabrın 8-9-da Türkiyə Ədliyyə Nazirliyinin təşkilatçılığı ilə keçirilən tədbirə dünyanın 30-dan çox dövlətindən 1200-ə yaxın nümayəndə, o cümlədən ədliyyə, məhkəmə və digər hüquq təsisatlarının, habelə nüfuzlu beynəlxalq təşkilatların rəhbərləri qatılıb.

Sammitdə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış edərək beynəlxalq hüququn aliliyinin təmin olunmasının, ədalətin və insan hüquqlarının qorunmasının əhəmiyyətini vurğulayıb.

Tədbir çərçivəsində beynəlxalq humanitar hüququn tətbiqi, beynəlxalq arbitraj, hüquq peşəsinin gələcəyi, beynəlxalq ədliyyə sistemi və insan hüquqları, ədliyyənin rəqəmsal dünyada yeri kimi aktual məsələlər müzakirə olunub.



Ədliyyə naziri Fərid Əhmədov Türkiyənin ədliyyə naziri Akın Gürlek ilə görüşüb

Azərbaycan Respublikasının ədliyyə naziri Fərid Əhmədov Türkiyə Respublikasına işgüzar səfəri çərçivəsində bu ölkənin ədliyyə naziri Akın Gürlek ilə görüşüb.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında qardaşlıq və müttəfiqlik münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb, ədliyyə sahəsində qarşılıqlı etimada və dəstəyə əsaslanan əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.



Hüquqi yardım, ekstradisiya, rəqəmsallaşma, penitensiar və probasiya sahələrində əməkdaşlığın genişləndirilməsi, qarşılıqlı təcrübə mübadiləsinin gücləndirilməsi və yeni birgə təşəbbüslərin həyata keçirilməsi imkanları nəzərdən keçirilib.

Tərəflər Türk Dövlətləri Təşkilatı çərçivəsində hüquq sahəsində əməkdaşlığın inkişafı və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıblar.

Fərid Əhmədov Qırğız Respublikasının ədliyyə naziri ilə görüşüb

Ədliyyə naziri Fərid Əhmədov Türkiyə Respublikasına işgüzar səfəri çərçivəsində Qırğız Respublikasının Baş nazirinin müavini, ədliyyə naziri Almaz Ayılçiyev ilə görüşüb.



Fərid Əhmədov Almaz Ayılçiyevi yeni vəzifəsinə təyin olunması münasibətilə təbrik edib, ona məsuliyyətli fəaliyyətində uğurlar arzulayıb.

Görüşdə Azərbaycan və Qırğız Respublikası arasında münasibətlərin yüksək səviyyədə olduğu və dövlət başçıları arasında qarşılıqlı səfərlərin əlaqələrin inkişafına mühüm töhfə verdiyi vurğulanıb.

İki ölkənin ədliyyə nazirlikləri arasında əməkdaşlığın möhkəm hüquqi bazaya söykəndiyi, notariat, penitensiar sistem, probasiya, mediasiya və məhkəmə ekspertizası kimi sahələrdə təcrübə mübadiləsinin həyata keçirildiyi qeyd olunub.

Tərəflər hər iki dövlətin ədliyyə nazirlikləri arasında mövcud əməkdaşlığın daha da inkişaf etdirilməsi, yeni təşəbbüslərin həyata keçirilməsi, həmçinin TDT çərçivəsində hüquq və ədliyyə sahəsində qarşılıqlı fəaliyyətin gücləndirilməsi barədə fikir mübadiləsi aparıblar.

Görüşün sonunda tərəflər arasında Əməkdaşlıq proqramı hazırlanıb, gələcəkdə imzalanması barədə razılığa gəlinib.

Ədliyyə naziri Pakistanın Federal Konstitusiya Məhkəməsinin sədri ilə görüşüb

Azərbaycan Respublikasının ədliyyə naziri Fərid Əhmədov ölkəmizdə səfərdə olan Pakistan İslam Respublikasının Federal Konstitusiya Məhkəməsinin sədri Amin-ud-Din Xan ilə görüşüb.



Görüşdə Azərbaycan və Pakistan arasında dostluq və qardaşlıq münasibətlərinin möhkəm tarixi, mədəni və dini bağlara əsaslandığı vurğulanıb. İki ölkə arasında strateji tərəfdaşlıq münasibətlərinin inkişafında dövlət başçıları İlham Əliyev və Şahbaz Şərifin qarşılıqlı səfərlərinin və yüksək səviyyəli görüşlərinin mühüm rolu qeyd edilib.

Tərəflər ədliyyə və məhkəmə sahələrində əməkdaşlığın genişləndirilməsi, hüquqi əlaqələrin inkişafı və qarşılıqlı təcrübə mübadiləsinin təşviqi ilə bağlı fikir mübadiləsi aparıblar.

Bildirilib ki, iki ölkənin ədliyyə qurumları arasında imzalanmış Anlaşma Memorandumu və Əməkdaşlıq Proqramı çərçivəsində hakimlər və ədliyyə işçiləri üçün birgə təlim proqramları həyata keçirilir. Artıq biri İslamabadda, digəri Bakıda olmaqla iki təlim keçirilib, növbəti təlimin noyabr ayında İslamabadda keçirilməsi nəzərdə tutulur.

Qeyd olunub ki, birgə təlimlərin və digər peşəkar tədbirlərin keçirilməsi iki ölkənin müvafiq qurumları arasında əlaqələrin daha da möhkəmləndirilməsinə xidmət edəcək.

Sonda Azərbaycan ilə Pakistan arasında dostluq münasibətlərinin və hüquqi əməkdaşlığın bundan sonra da genişləndirilməsinin əhəmiyyəti vurğulanıb.

Ədliyyə naziri hakim vəzifələrinə təyin edilmiş əməkdaşlarla görüşüb

Azərbaycan Respublikası Prezidentinin 10 oktyabr 2026-cı il tarixli Sərəncamı ilə 2 nəfər ədliyyə işçisi birinci instansiya məhkəmələrinin hakimləri təyin ediliblər.

Ədliyyə naziri Fərid Əhmədov hakim vəzifələrinə təyin edilmiş ədliyyə işçiləri ilə görüşüb.

Nazir yeni təyin edilmiş hakimləri təbrik edərək onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. O, hakim vəzifəsinə təyinatın böyük məsuliyyət daşıdığını vurğulayaraq ədalət mühakiməsinin həyata keçirilməsində peşəkarlığın, qərəzsizliyin və qanunun aliliyinə sadiqliyin mühüm əhəmiyyətini qeyd edib.

Bildirilib ki, ədliyyə orqanlarında qazandıqları təcrübə və peşəkar biliklər yeni təyin olunmuş hakimlərin gələcək fəaliyyətində mühüm rol oynayacaq. Bu təyinatlar məhkəmə sisteminin təcrübəli kadrlarla gücləndirilməsinə və ədalət mühakiməsinin keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

Görüşdə yeni təyin edilmiş hakimlər göstərilən etimada görə təşəkkürlərini bildiriblər, üzərlərinə düşən vəzifələri qanunvericiliyin tələblərinə uyğun, vicdanla və məsuliyyətlə yerinə yetirəcəklərini vurğulayıblar.



Ədliyyə naziri "Yüksəliş" müsabiqəsinin qalibləri ilə növbəti görüşünü keçirib



Ədliyyə naziri Fərid Əhmədov "Yüksəliş" müsabiqəsinin Mentorluq Proqramı çərçivəsində sayca beşinci müsabiqənin qalibləri Məmməd Balacanov və Ramil Hüseynzadə ilə növbəti görüşünü keçirib.

Fərid Əhmədov qaliblərin peşəkar inkişafı, idarəetmə bacarıqlarının təkmilləşdirilməsi və praktiki təcrübələrinin artırılması ilə bağlı tövsiyələrini bölüşüb. Nazir fərdi inkişaf planında nəzərdə tutulan məqsədlərin ardıcıl şəkildə həyata keçirilməsinin əhəmiyyətini vurğulayıb.

Görüş zamanı qaliblərin proqram çərçivəsində əldə etdikləri təcrübə, qarşılaşdıqları məsələlər və gələcək fəaliyyətləri ilə bağlı fikirləri dinlənilib. Mentorluq prosesinin səmərəli təşkili və müəyyən edilmiş hədəflərə nail olunması istiqamətində görüləcək işlər nəzərdən keçirilib.

Qeyd edək ki, "Yüksəliş" müsabiqəsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 26 iyul 2019-cu il tarixli Sərəncamı ilə təsis edilib. Müsabiqə qalibləri bir il müddətində mentor dəstəyi ilə fərdi inkişaf planı əsasında fəaliyyət göstərir və 20 min manat məbləğində mükafat əldə edirlər.



Ədliyyə naziri Fərid Əhmədov ədliyyə sistemində həyata keçirilən islahatlar və tətbiq edilən yeni yanaşmalarla bağlı İTV və Report İnformasiya Agentliyinə müsahibə verib

Bu gün Azərbaycan ədliyyə sistemində görülən işlər və aparılan islahatlar, məhkəmə qərarlarının icrasındakı mövcud problemlər və bu istiqamətdə atılan addımlar, penitensiar sistemdə tətbiq edilən yeniliklər, rəqəmsallaşma istiqamətində həyata keçirilən layihələr ictimai maraq doğuran mühüm mövzular sırasındadır. Həmçinin cəzaçəkmə müəssisələrində məhkumların islahı və reabilitasiyası, peşə təhsilinin təşkili, eləcə də probasiya sahəsində tətbiq edilən yeniliklər diqqət mərkəzindədir.
Ədliyyə naziri Fərid Əhmədov "Report" və İTV-yə müsahibəsində bu mövzulara aydınlıq gətirib. Nazir ədliyyə sahəsində görülən işlər və gələcək planlar barədə danışıb.

İTV: Ədliyyə Nazirliyinin ən mühüm fəaliyyət istiqamətlərindən biri məhkəmə qərarlarının icrasıdır. Cəmiyyətdə və sosial şəbəkələrdə vaxtaşırı bununla bağlı müxtəlif fikirlər səslənilir. Bu sahədə hazırkı vəziyyəti necə qiymətləndirirsiniz? Ötən müddət ərzində hansı nailiyyətlər əldə olunub, hansı işlər görülüb?

- İcra sənədlərinin və onların içində mühüm yer tutan məhkəmə qərarlarının icrası Ədliyyə Nazirliyinin mühüm fəaliyyət istiqamətlərindən biridir. Bu da təsadüfi deyil, çünki məhkəmə qərarlarının icrası həm vətəndaşlarımızın və sahibkarlıq subyektlərinin hüquqlarının həyata keçirilməsinin, həm də bütünlükdə məhkəmə hakimiyyətinə etimadın formalaşmasının vacib alətlərindən biridir. Bu səbəbdən də məhkəmə qərarlarının və digər icra sənədlərinin icrası daim diqqət mərkəzində saxlanılır.

Son illərdə həyata keçirilən tədbirlər nəticəsində 2025-ci ilin sonuna icra göstəricilərimiz 60% həddinə çatıb. Bu, son 5 ilin ən yüksək göstəricisidir. Cari ilin ilk 6 ayının nəticələrinə görə isə icra göstəriciləri təxminən 62% həddində olub. İlin sonuna qədər bu göstəricinin təxminən 62-65% arasında olacağını proqnozlaşdırırıq.

Təbii ki, icra göstəricilərimizin 100% həddində olmasını istəyərdik. Təəssüf ki, dünyanın heç bir yerində bu göstəricilərə nail olmaq mümkün deyil və bunun da müxtəlif səbəbləri olur. Bu, borcluların əmlak vəziyyəti, ödəmə qabiliyyəti və resurslardan irəli gələn digər səbəblərlə bağlı ola bilər. Lakin bizim hədəfimiz davamlı olaraq icra göstəricilərini artırmaqdan ibarətdir.

”Report”: Qeyd etdiyiniz kimi, icra sənədlərinin icrasında bəzi çətinliklər var. Bu maneələr nədən ibarətdir və bunun həlli yolları üçün hansı addımlar atılır? Xüsusi icra məmurları institutu bu problemlərin həllində nə dərəcədə effektiv rol oynayır?

- Qeyd etdiyim kimi, icra göstəricilərinin 100% həddinə çatdırılması bizim ideal hədəflərimizdən olardı. Lakin müxtəlif obyektiv və subyektiv amillərlə bağlı səbəblərdən buna nail olmaq mümkün olmur. Subyektiv səbəblərin sırasında etiraf edirəm ki, bəzən icra məmurlarının kompetensiyasının zəifliyindən qaynaqlanan hallar da ola bilər. Və yaxud bəzən icra məmurları qanunvericiliklə müəyyən olunmuş çərçivələrdən kənar davranışlar sərgiləyə bilirlər ki, biz bunlara qarşı ən sərt tədbirləri görürük.

Digər subyektiv səbəblərdən biri də pul tələbləri üzrə icra sənədlərinin icrası zamanı borclunun maddi durumu ilə bağlıdır. Çünki bəzi hallarda pul tələbləri ilə bağlı icra sənədləri daxil olanda icra məmuru bütün zəruri icra hərəkətlərini görməsinə baxmayaraq, borclunun hər hansı bir aktivi aşkar edilmir. Yəni rəsmi gəliri və yaxud adına rəsmiləşmiş hər hansı bir daşınar və ya daşınmaz əmlakı olmadığına görə tələbin icra edilməsi mümkünsüz olur.

Buna baxmayaraq, bu hallarda da biz zəruri icra hərəkətlərini həyata keçirir və borclunun gələcəkdə aktivləri yarandığı halda tələbin bu aktivlərə yönəldilməsini təmin edirik. Amma bütövlükdə pul tələbləri ilə bağlı bu subyektiv məqamlarla üzləşmiş oluruq ki, bunlar da məhkəmə qərarlarının icrasında müəyyən maneələr yarada bilir.

Bunlarla yanaşı, icra ilə bağlı olan çətinliklərin obyektiv səbəbləri də var. Bu da əsasən son illərdə icraata daxil olan işlərin sayında kəskin artımın müşahidə olunması ilə bağlıdır. Müqayisə üçün qeyd edim ki, 2020-2023-cü illərdə icraata daxil olan icra sənədlərinin sayı il ərzində 307-309 min olub. Bu rəqəm 2024-cü ilin sonuna təxminən 30% artaraq 387 min təşkil edib. 2025-ci ilin sonuna isə bu göstərici 436 minə çatıb. Bu ilin sonuna il ərzində icraata daxil olmuş işlərin sayının 500 mini keçəcəyini proqnozlaşdırırıq. Təbii ki, bu da İcra xidmətinin iş yükünü xeyli artırıb.

Bir tərəfdən bunu ölkədə məhkəmə hakimiyyətinə etimadın artması və iqtisadi fəallığın, mülki dövriyyənin artmasının nəticəsi kimi qiymətləndirməliyik. Bu, müsbət haldır. Amma digər tərəfdən də İcra xidməti aşırı dərəcədə yüklənib. Bu yüklənmə icra məmurlarının sayının statik qalması fonunda baş verib. Yəni bir tərəfdən icraata daxil olan işlərin sayında kəskin artım, digər tərəfdən isə icra məmurlarının sayının dəyişməz olaraq qalması problemi ilə üzləşmişik.

Təbii ki, biz buna baxmayaraq icra intizamını gücləndirərək, bu sahədə müasir rəqəmsal alətləri tətbiq etməklə icra göstəricilərimizin artmasına nail ola bilmişik. Lakin qeyd etdiyim problemləri nəzərə alaraq, onların köklü, fundamental institusional islahatların həyata keçirilməsi yolu ilə həllinin mümkün olduğunu hesab edirik və bu istiqamətdə bir sıra təşəbbüslər irəli sürmüşük.

Bu təşəbbüslərdən biri xüsusi icra məmuru institutunun formalaşması və tətbiqi ilə bağlı idi. Bildiyiniz kimi, 2025-ci ildə ”Xüsusi icra məmurları” haqqında qanun qəbul edilib, bu institutun 2026-cı ildə tətbiqi nəzərdə tutulub. Bu qanunun əsas fəlsəfəsi ondan ibarətdir ki, dövlət icra sənədlərinin icrası ilə bağlı yükünün bir hissəsini bazara ötürərək bu münasibətlərdə artıq nəzarəti və tənzimlənməni həyata keçirən quruma çevrilir.

İlkin mərhələdə xüsusi icra məmurlarının fəaliyyəti bir sıra kateqoriyaya aid olan icra sənədlərinə tətbiq olunacaq. Bu da əsasən pul tələbləri ilə bağlı olan işlərdir. Bunun iki səbəbi var. Təbii ki, xüsusi icra məmurlarının fəaliyyətinin səmərəli təşkili üçün təbii təşviq mexanizmləri olmalı idi və bu mexanizm təsisatın gəlirliliyi ilə bağlı idi. Ona görə də ilkin mərhələdə pul tələblərindən irəli gələn icra işlərinin onlara ötürülməsini daha məqsədəmüvafiq hesab edirik.

Bunun digər bir səbəbi də var. İcra portfelimizə nəzər salsaq, bu günə təqribən 1 milyon 90 min icra sənədi var. Bunların 60%-dən çoxu pul tələbləri ilə bağlı olan işlərdir. Bu rəqəm elə təəssürat yarada bilər ki, subyekt dairəsi olaraq pul tələbləri ilə bağlı 600 mindən artıq tələbkar var. Bu əsla belə deyil. Pul tələblərinin 520 mindən artıq hissəsi cəmi 40 subyekti əhatə edir. Başqa sözlə, cəmi 40 hüquqi şəxs 520 min icra sənədi üzrə tələbkar qismində çıxış edir. Bunlar əsasən banklar, bank olmayan kredit təşkilatları (BOKT), məişət avadanlığının satışı ilə məşğul olan subyektlər və digər hüquqi şəxslərdir.

Burada əsasən bankların və BOKT-ın təminatsız kreditlər verdiyini, sonra o kreditlərin geri qaytarılmasında çətinliklərlə üzləşdiyi halları görürük. Belə hallarda onlar məhkəməyə müraciət edirlər. Məhkəmə qərarı qəbul edildikdən sonra həmin icra sənədi bizim icraata daxil olur və nəticədə iş yükümüz kəskin şəkildə artır.

Biz əsla ölkədə kreditlərin verilməsinin əleyhinə deyilik. Bu iqtisadi dövriyyəni təşviq edən amillərdəndir. Lakin hər hansı bir sahibkarlıq subyektinin öz riskini düzgün idarə etməməsi nəticəsində dövlət qurumunun yüklənməsinin əleyhinəyik. Qanunun da məqsədi və məntiqi bundan ibarətdir ki, hər hansı bir subyekt öz riskini düzgün idarə etməməsi nəticəsində ona münasibətdə borc yaranırsa, bununla bağlı olan xərcləri həmin subyekt özü çəkməlidir.

Xüsusi icra mexanizmi də məhz bunu təmin etmiş olacaq. Xüsusi icra məmurları dövlət icra məmuru ilə eyni səlahiyyətlərə malik olacaqlar. Onlar da daxil olan tələblər üzrə icra hərəkətlərini dövlət icra məmuru kimi tam şəkildə həyata keçirə biləcəklər. Fərq yalnız ondan ibarət olacaq ki, onlar bunu ödəniş müqabilində edəcəklər. Beləliklə, bu portfelin böyük hissəsini özəl sektora ötürdükdə dövlətin bu sahədə yükü xeyli azalmış olacaq.

Məlumat üçün bildirim ki, xüsusi icra məmurlarının şəhadətləndirilməsi prosesinə artıq başlamışıq. Onlar müsabiqənin birinci mərhələsi olan yazılı mərhələni bitiriblər. Müsahibə mərhələsindən sonra təlimlərdən keçib xüsusi icra məmuru olaraq tam fəaliyyətə başlaya biləcəklər.

Digər tərəfdən üzləşdiyimiz növbəti obyektiv problem icra məmurlarının sayı ilə bağlıdır. Yenə də mən icraatda olan işlərimizin sayını yadınıza salmaq istərdim. İcraatda olan 1 milyon 90 minə yaxın işi icra məmurlarının sayına bölsək, ölkə üzrə hər icra məmuruna ildə ortalama 3500-4000 icra işi düşür. Rayonlarda isə bu rəqəm 10 mindir.

Bu, əsasən ədliyyə qulluğuna qəbul olan şəxslərin rayonlarda icra məmuru qismində işləmək istəməməsi ilə bağlıdır. Ədliyyə orqanlarına qulluğa qəbul olarkən Bakıda işləmək istəklərini ifadə etsələr də, rayonlara getmək istəmirlər. Beləliklə, rayonlarımızda icra məmuru resursumuz kəskin şəkildə azalmağa başlayıb.

(ardı 4-cü səhifədə)

Ədliyyə naziri Fərid Əhmədov ədliyyə sistemində həyata keçirilən islahatlar və tətbiq edilən yeni yanaşmalarla bağlı İTV və Report İnformasiya Agentliyinə müsahibə verib

(əvvəli 3-cü səhifədə)

Biz bu məsələnin həlli üçün qanunvericiliyə dəyişiklik təklifi ilə çıxış etdik. Dövlət icra məmurları haqqında qanuna dəyişiklik edilərək ümumiyyətlə icra məmurlarına münasibətdə ali hüquq təhsili tələbinin aradan qaldırılmasına nail olduq. Bu təbii ki, bir çox müzakirələrin nəticəsində verilmiş qərar oldu. Əsas sual ondan ibarət idi ki, dövlət icra məmuruna münasibətdə nə kimi səriştələr tələb olunur? Belə qənaətə gəldik ki, dövlət icra məmuru əslində tam olaraq 4 illik hüquq təhsili almadan təlimləndirmə prosesini keçməklə bu fəaliyyəti həyata keçirə bilər.

Artıq bu istiqamətdə ali hüquq təhsili olmayan icra məmurlarının seçimi prosesinə başlamışıq. Bu il 600-ə yaxın namizəd müraciət edib və onlardan 300-ə yaxını birinci mərhələdən keçərək müsahibə mərhələsinə buraxılıb. Onlara təlim keçirildikdən sonra regionlardakı vakansiyalarımıza yönləndirəcəyik. Bu institusional islahatları aparmaqla biz həm iş yükü ilə bağlı olan problemimizi, həm də resurs çatışmazlığı ilə bağlı olan çətinliklərimizi həll etmiş olacağıq.

İTV: Cəmiyyətdə daim diqqət mərkəzində olan məsələlərdən biri də penitensiar müəssisələrdir. Gəlin ondan başlayaq ki, bu təkcə cəzaçəkmə müəssisəsi deyil, həm də islah müəssisəsidir. Və burada çox önəmli bir məsələ məhkumların islah prosesinin təşkilidir. Azadlığa çıxan şəxslərin yenidən cinayət törətməsinin qarşısını almaq üçün cəzaçəkmə müəssisələrində hansı tədbirlər görülür? Bu istiqamətdə sizin fikrinizcə nələr edilməlidir?

- Tamamilə doğrudur. Adına baxmayaraq ki, bu cəzaçəkmə müəssisəsidir, təbii ki, buna birinci növbədə islah prizmasından yanaşmalıyıq. İslah dedikdə cəmiyyətdə ilk növbədə cinayətkara münasibətdə cəzaçəkmə müəssisələri ağıla gəlir. Amma mən islah prosesini dar hüquqi mənada deyil, daha geniş mənada bütövlükdə cəmiyyətdə baş verməli olan proses kimi qiymətləndirirəm.

Çünki bir şəxs cəzaçəkmə müəssisəsinə daxil olmazdan öncə azadlıqda hər hansı bir davranış sərgiləyib. Bu adətən islah olunmamış şəxsin davranışı olduğuna görə həmin şəxs cəzaçəkmə müəssisəsinə daxil olur. Hər hansı bir vətəndaşın islah prosesinə bütövlükdə cəmiyyətin məsuliyyəti kimi baxmalıyıq. Bu baxımdan cəzaçəkmə müəssisələrində baş verən islah prosesi əslində təkrar islah prosesi kimi qiymətləndirilməlidir.

Yəni qeyd etdiyim kimi bir şəxs azadlıqda islah olunmadığına görə, o, hər hansı bir cinayəti törədərək cəzaçəkmə müəssisəsinə daxil olur və burada artıq təcrid şəraitində onun islahı prosesinə biz yenidən başlamış oluruq.

Cəzaçəkmə müəssisələrində tətbiq etdiyimiz vasitələr əsasən tərbiyə işindən, məhkumların ictimai faydalı əməyə, təhsil və peşə təhsilinə cəlb olunmasından ibarətdir. Azadlıqda da tərbiyə işi ailə təsisatı, eyni zamanda məktəbəqədər təhsil və məktəb təhsili ilə bağlıdır.

Bir şəxsin əməyə cəlb olunması, ictimai faydalı əməklə məşğul olması onun bir şəxsiyyət, vətəndaş kimi formalaşmasına töhfə verir. Bu baxımdan biz islah prosesinə geniş mənada, yəni bütövlükdə cəmiyyətin məsuliyyəti kimi baxmalıyıq. Adlarını çəkdiyim təsisatlar işlək olmadıqda şəxs deviant davranışa (cəmiyyətdə qəbul edilən qanun, qayda, ümumi davranış normalarının əleyhinə gedən hərəkət - red.) əl atmış olur, cinayətkar təfəkkürü formalaşır, qanunu pozur və cəzaçəkmə müəssisəsinə daxil olur.

Azərbaycanda cinayətkarlığın səviyyəsi çox aşağıdır. Bunu hətta ən inkişaf etmiş Qərb ölkələri ilə müqayisədə də görürük. Bu da adlarını çəkdiyim təsisatların kifayət qədər təsirli olması anlamına gəlir və bu prosesdə təbii ki, hüquq-mühafizə orqanlarının da effektiv fəaliyyəti danılmazdır.

Lakin bütün cəmiyyətlərdə və dövlətlərdə cinayətkar davranışa malik olan insanlar var və Azərbaycan da bu baxımdan istisna deyil. Onlar cinayət törətdikdə cəzaçəkmə müəssisəsinə daxil olurlar və artıq onların islah prosesi təcrid şəraitində həyata keçirilməyə başlayır. Sadaladığım vasitələri tətbiq etməklə onların islah olunması və gələcəkdə təkrar cinayətlərin törədilməsinin qarşısının alınması məqsədilə bu prosesi təşkil edirik.

Düşünürəm ki, bu vasitələrdən ən önəmlisi təhsil və xüsusilə səriştə və bacarıqlara əsaslanan peşə təhsili vasitəsilə bu islah prosesini təşkil etməkdir. Nəyə görə məhz bunlar üzərində xüsusi vurğu işarəsini qoyuram? Çünki dünyanın müxtəlif ölkələrində və Azərbaycanda cinayət törədən şəxslərə nəzər salsaq, onların bir qismının əmək qabiliyyətli, lakin işsiz adamlar olduğunu görürük. Onların işlə təmin olunmamasının səbəbi əmək bazarında işsizliyin olması ilə əlaqədar deyil. Sadəcə onların əmək bazarında təklif olunan işlərə uyğun səriştə və bacarıqları yoxdur.

Təkrar cinayətlər statistikasına baxanda bunların da sırasında işsiz adamların sayının xeyli sayda olduğunu müşahidə edirik. Bu səbəbdən də biz cəzaçəkmə müəssisələrində bu səriştə və bacarıqların formalaşması və cəzadan azad olduqdan sonra həmin şəxslərin işlə təmin olunması məsələsinə xüsusi önəm veririk.

Bildiyiniz kimi, "Cəzaçəkmə müəssisələrində peşə təhsilinin keyfiyyətinin yüksəldilməsinə və mövcud infrastrukturun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 iyun tarixli Sərəncamı var. Bu sərəncama əsasən peşə təhsilinin təşkili ilə bağlı bir sıra tapşırıqlar verilib və bunların icrası çərçivəsində tərəfimizdən yeni bir layihəyə - "N.Ə.F.Ə.S" layihəsinə start verilib.

Bu layihə çərçivəsində dövlət-özəl tərəfdaşlığı əsasında bir sıra peşə təhsili hazırlığı proqramlarına başlamışıq. Həm regionlarda, həm də Bakıda yerləşən cəzaçəkmə müəssisələrində əmək bazarında tələb olunan ixtisaslar üzrə peşə hazırlığına başlamışıq. Bununla bağlı bazar araşdırması aparmışıq və hansı peşələrə daha çox ehtiyac olduğunu müəyyən edərək bu sahədə peşəkarlıq səviyyəsi yüksək olan özəl tərəfdaşları cəlb etmişik.

Belə ki, artıq cəzaçəkmə müəssisələrində elektrik montyoru, elektrik-qaz qaynaqçısı, hibrid və elektrik nəqliyyat vasitələrinin təmiri və bir sıra digər sahələr üzrə peşə hazırlığına başlamışıq.

İlkin mərhələdə ildə 1100 məhkumun sertifikatlaşmış peşə hazırlığına cəlb olunması nəzərdə tutulub. Bu prosesə yalnız özəl tərəfdaşlar deyil, eyni zamanda dövlətə məxsus hüquqi şəxslər də cəlb olunublar. Onlar da cəzaçəkmə müəssisələrində müvafiq infrastrukturun qurulmasına və təlimlərin təşkilinə kömək edirlər.

"Report": Cəmiyyətdə olan bəzi yanaşmalardan irəli gələrək bəzi işə götürənlər məhkum olunmuş şəxslərə ehtiyatla yanaşırlar. Və bu da onların işlə təmin olunmasına maneələr yaradır. Bəs bu problemin həllini nədə görürsünüz?

- Ədliyyə Nazirliyi olaraq bizim də stereotipimiz var idi ki, işəgötürənlər cəzaçəkən və yaxud cəza çəkmiş şəxslərin işə qəbuluna ehtiyatla yanaşırlar. Amma 500 işəgötürən arasında rəy sorğusu apardıq və gördük ki, bu, birmənalı belə deyil. Əslində, bu stereotipin müəyyən dərəcədə əsassız olduğu qənaətinə gəldik.

Təbii ki, bu, şəxsin törətdiyi cinayətdən asılı olaraq və işləmək istədiyi vəzifədən asılı olaraq dəyişə bilər. Məsələn, ehtiyatsızlıqdan törədilən cinayətlərə münasibətdə işə götürənin yanaşması daha dözümlüdür və daha az ehtiyatlanır. Amma daha ağır cinayətlər törətmiş şəxslərə münasibətdə onların davranışları təbii ki, daha ehtiyatlıdır.

Bütövlükdə belə bir stereotip və stiqmanın mövcudluğu ilə razıyam. Bunun aradan qaldırılması üçün özəl tərəfdaşları cəzaçəkmə müəssisələrinə cəlb edə bilmişik. Məhkumlarla birlikdə təlim və təcrübə prosesində iştirak etməklə, onlarla yaxından tanış olmaqla işəgötürənlərdə bu ehtiyatların, stereotip və stiqmaların aradan qaldırılmasına nail olacağımıza inanırıq. Bununla bağlı artıq müsbət təcrübələrimiz də var.

İTV: Gəlin razılaşaq ki, penitensiar xidmət müəssisələrində məhkum olunan şəxsin islah olunması həm də bu penitensiar xidmət müəssisəsində mövcud şəraitdən, yəni infrastrukturdan asılıdır. Sizi qane edirmi mövcud infrastrukturun vəziyyəti və qarşıya qoyduğunuz məqsədlərə nail olmaq üçün yetərlidirmi? Bu sahədə hansı işlərin görülməsi planlaşdırılır, hansı addımların atılması gözlənilir?

- Bildiyiniz kimi, bu günə qədər cənab Prezidentin tapşırığıyla bir sıra yeni cəzaçəkmə müəssisələri tikilib və bu proses davam etməkdədir. Sizinlə tam razıyam ki, sadaladığım məsələlərin həlli üçün, hətta sağlam peşə təhsili infrastrukturunun qurulması üçün bütövlükdə cəzaçəkmə infrastrukturunun sağlam olması lazımdır. Bu istiqamətdə də hazırda bir sıra tədbirlər həyata keçirilir. Cənab Prezidentin tapşırığı ilə artıq yeni cəzaçəkmə müəssisələri tikilir. Bu layihələr mövcud infrastrukturun yenilənməsinə xidmət edir.

Artıq Qaradağda 2000 məhkum üçün nəzərdə tutulan yeni cəzaçəkmə müəssisəsinin tikintisinə başlamışıq. Eyni zamanda Umbakıda 35 hektar ərazidə 6-7 min məhkum üçün nəzərdə tutulan yeni cəzaçəkmə müəssisəsinin tikilməsi planlaşdırılır. Bununla yanaşı, Gəncədə cəzaçəkmə müəssisəsinin inşası nəzərdə tutulub. Beləliklə, mövcud infrastrukturu yeniləmək məqsədilə gələcəkdə təxminən 11 min məhkum üçün nəzərdə tutulan yeni cəzaçəkmə müəssisələrini istifadəyə verməyi hədəfləmişik. Bu layihələrin 2030-cu ilə qədər başa çatdırılması nəzərdə tutulub.

Bu cəzaçəkmə müəssisələri tam müasir standartlara cavab verəcək. Burada həm yeni peşə təhsili infrastrukturunun, həm də cəza çəkənlərə nəzarət mexanizmlərinin rəqəmsal alətlərlə - üz tanıma sistemləri və digər texnoloji həllərlə qurulması nəzərdə tutulur. Bu da öz növbəsində islah prosesinə mühüm töhfə vermiş olacaq.

Bununla yanaşı, biz cəzaçəkmə müəssisələrinin infrastrukturunun təkmilləşdirilməsi istiqamətində geniş rəqəmsal layihələrin həyata keçirilməsinə başlamışıq. Bu layihələrin bütövlükdə cəzaçəkmə müəssisələrinin idarə edilməsinin daha da optimallaşdırılması və şəffaflaşdırılmasına xidmət edəcəyinə inanırıq.

Burada əsasən vətəndaşla fiziki təmasın azaldılmasına yönəlik rəqəmsal həllərin tətbiq edilməsini nəzərdə tutmuşuq. Artıq bu rəqəmsal həlləri pilot layihə olaraq tətbiq etməyə başlamışıq. Bunlardan biri ziyarətçilərin onlayn informasiya sistemidir. Bu sistemlə məhkumlarla görüşə qeydiyyat və məhkumlara sovqat göndərilməsi prosesləri tam rəqəmsallaşdırılıb. Bu proseslərə nəzarət aləti kimi bu rəqəmsal həllərdən istifadə edirik.

Bundan başqa, məhkumlarla video görüş platforması yaradılıb və istifadəyə verilib.

Eyni zamanda tibbi xidmətin keyfiyyətinin artırılması istiqamətində yeni teletibb, yəni məhkumların məsafədən müayinəsi platforması formalaşdırılıb. Bu, həm resursların düzgün idarə olunması, həm də daha keyfiyyətli, sürətli tibbi xidmətin göstərilməsini təmin etmək məqsədilə formalaşdırılıb.

Hazırda bu rəqəmsal həlləri dörd cəzaçəkmə müəssisəsində tətbiq edirik və bütün Penitensiar xidmətin infrastrukturunu əhatə etməyi nəzərdə tutmuşuq. Bu həlləri tətbiq etməklə bütövlükdə Penitensiar xidmətdə proseslərin daha rəvan, effektiv qurulmasına nail ola biləcəyik.

(ardı 5-ci səhifədə)

Ədliyyə naziri Fərid Əhmədov ədliyyə sistemində həyata keçirilən islahatlar və tətbiq edilən yeni yanaşmalarla bağlı İTV və Report İnformasiya Agentliyinə müsahibə verib

(əvvəli 4-cü səhifədə)

"Report": Cəmiyyətdən təcrid etmə ilə bağlı olmayan cəzanın icrası sahəsinə vəziyyətlə bağlı fikirləriniz maraqlı olardı. Bu çərçivədə probasiya nəzarəti cəmiyyətin təhlükəsizliyi, həm də məhkumların reabilitasiyası baxımından gözlənilən nəticəni verdimi?

- Bildiyiniz kimi, cənab Prezident 2017-ci ildə "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncam imzalayıb. Məhz bu Sərəncamda Probasiya xidmətinin yaradılması tapşırığı verilib. Xidmət həmin ildən etibarən fəaliyyət göstərir.

Probasiyanın əsas iki məqsədi var. Bunlar azadlığı məhdudlaşdırılmış şəxslər üzərində probasiya nəzarətini həyata keçirmək və sosial adaptasiya və məhkumların reabilitasiyasından ibarətdir. Sosial adaptasiya və məhkumların reabilitasiyası bizim üçün prioritet istiqamətlərdən biridir. Çünki məhz probasiya nəzarətində olan şəxslərin cinayət törətmək riskləri daha böyük ola bilər və biz düşünürük ki, bu onlar üçün həssas dönəmdir. Bu zaman həmin şəxslərin sosial reabilitasiyasını təmin etməklə qanuna itaət edə biləcək vətəndaşlara çevrilməsinə nail ola bilərik.

Həyata keçirilən tədbirlər nəticəsində biz artıq probasiya şərtlərini pozmuş şəxslərin sayında kəskin azalma müşahidə edirik. 2023-cü ilin sonuna bu rəqəm 842 olmuşdusa, 2025-ci ilin sonunda 9 dəfə azalmaqla 93-ə düşmüşdür. Eyni zamanda probasiya nəzarətində olan şəxslərin təkrar cinayət törətməsi hallarının təxminən 15% azaldığını müşahidə edirik.

Bütövlükdə probasiya sahəsində daha köklü islahatların həyata keçirilməsi məqsədilə probasiya fəaliyyətinin genişləndirilməsi və təkmilləşdirilməsi ilə əlaqədar 2027-2031-ci illəri əhatə edən konsepsiya hazırlamışıq. Bu konsepsiya layihəsi hazırda hökumətdə razılaşma prosesindədir və düşünürəm ki, bu konsepsiyanın tətbiqi ilə Probasiya xidməti üzrə qeyd etdiyim hədəflərə çata biləcəyik.

İTV: Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı məhkəmə ekspertizasının rolu danılmazdır. Hətta mən çox vaxt tanışlarımdan eşidirəm ki, ekspertizanın nəticəsi çıxsın, görək necə olacaq. Və bu cəmiyyətdə mövcud olan bir fikirdir. Məhkəmə ekspertizası sahəsində həllini gözləyən problemlər hansıdır və bu istiqamətdə nə işlər görülür?

- Məhkəmə ekspertizasının və ekspertin rəyinin məhkəmənin qəbul etdiyi qərar üçün əhəmiyyəti böyükdür. Bununla belə, yekunda təbii ki, ekspertin rəyi məhkəmə üçün onun qiymətləndirəcəyi sübutlardan biri qismində çıxış edir. Başqa sözlə, məhkəmə bütün sübutları, o cümlədən ekspert rəyini vəhdət şəkildə qiymətləndirərək yekun qənaətə gəlir.

Məhkəmə ekspertizası institutunun əhəmiyyəti nəzərə alınaraq, 2024-cü ildə cənab Prezident tərəfindən bu sahədə fəaliyyətin daha effektiv və mərkəzləşdirilmiş şəkildə koordinasiyasını təmin etmək üçün Azərbaycan Respublikasında Məhkəmə Ekspertizası Şurası yaradılıb. Bu Şuraya da bir sıra tapşırıqlar, o cümlədən ekspertiza fəaliyyətinin bütün qurumlar arasında qarşılıqlı şəkildə tam rəqəmsallaşdırılması tapşırığı verilib.

Bununla əlaqədar olaraq, Şuranın təklifləri əsasında 2025-ci ildə "Məhkəmə Ekspertizası" informasiya sisteminin yaradılması haqqında Fərman imzalanıb. Hazırda bu informasiya sistemi tam olaraq istifadəyə hazırdır. Sadəcə bəzi normativ tənzimləmənin tamamlanması gözlənilir. Proses yekunlaşdıqdan sonra sistem tam şəkildə istifadəyə veriləcək.

Sistem yalnız Ədliyyə Nazirliyi tərəfindən aparılan məhkəmə ekspertizası deyil, eyni zamanda digər qurumlarda həyata keçirilən qeyri-tibbi ekspertiza və tibbi ekspertiza növlərini də əhatə edəcək. Bu sistem vasitəsilə ekspertiza prosesinin real vaxt rejimində izlənməsi mümkün olacaq, yəni iş üzrə tərəflər ekspertizanın statusu haqqında məlumat əldə edə biləcəklər. Bütövlükdə bu informasiya sistemi ekspertiza sahəsində çox önəmli məlumat bazasına çevriləcək.

Bundan başqa, Şuranın fəaliyyəti nəticəsində "Azərbaycan Respublikasında məhkəmə ekspertizası sahəsinin inkişafına dair 2026-2030-cu illər üçün Konsepsiya" hazırlanıb. Sənəd cənab Prezidentin müvafiq sərəncamı ilə təsdiq edilib və konsepsiyanın əhatə etdiyi müddət ərzində həm bir sıra institusional və normativ, həm də bütövlükdə ekspertiza infrastrukturunun inkişafı ilə bağlı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub.

"Report": Bildiyiniz kimi, ölkədə yeni özəl məhkəmə ekspertləri fəaliyyətə başlayacaq. Həmin ekspertlər məhkəmə ekspertizası sahəsinin inkişafına öz töhfəsini verəcəkmi və bu töhfə nədən ibarət olacaq?

- Əslində icra sahəsində gördüyümüz tədbirləri analoji olaraq ekspertiza sahəsində də tətbiq edə bilərik. Çünki icra sahəsində olduğu kimi, ekspertiza sahəsində də icraata daxil olan işlərin sayında kəskin artım müşahidə edirik. Son 4 il ərzində icraata daxil olan işlərin sayında 45 %-ə yaxın artım müşahidə olunub. Bu da dövlətin bu sahədə yükünü kəskin şəkildə artırmaqla nəticələnib. İcraata daxil olan işlərin sayındakı artım həm ekspert rəylərinin keyfiyyətinə, həm də vaxtında təqdim olunmasına təsir göstərə bilir.

Bütövlükdə, bundan öncə verilən sualın məntiqi davamı olaraq, bu ədalət mühakiməsinə də hansısa mənada mənfi təsir göstərə bilər. Bu sahədə iş yükünü optimallaşdırmaq məqsədilə özəl ekspertiza institutunun və özəl ekspertlərin fəaliyyətə başlaması ilə bağlı şəhadətləndirmə prosesinə start vermişik. Hazırda bu proses davam etməkdədir. Onlar təlim prosesini bitirdikdən sonra seçim prosesindən keçib özəl ekspert kimi fəaliyyətə başlaya biləcəklər.

Qanunla dövlətin müstəsna səlahiyyətinə aid edilmiş ekspertiza sahələri istisna olmaqla, bütün digər ekspertiza sahələrində dövlət ekspertləri ilə yanaşı, özəl ekspertlər də rəy verə biləcəklər. Beləliklə, bu sahədə dövlətin yükünü azaldıb, ədalət məhkəməsinə müsbət töhfə verə biləcəyik.

İTV: Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilən bir sıra rəqəmsal layihələr barədə məlumat verdiniz. Bəs ədliyyə fəaliyyətinin digər hansı istiqamətlərində rəqəmsallaşma tədbirləri həyata keçirilir? Bütövlükdə rəqəmsal ədliyyə xidmətlərinin əhatə dairəsinin genişləndirilməsi üçün hansı yeniliklər gözlənilir? Ümumiyyətlə rəqəmsallaşma və süni intellekt zamanın tələbidir. Ədliyyə Nazirliyi bu tələblərə ayaqlaşa bilirmi?

- Bildiyiniz kimi bütün dövlət qurumlarında fəaliyyət istiqamətləri üzrə rəqəmsal layihələr həyata keçirilir. Ədliyyə Nazirliyi rəqəmsallaşmaya özözlüyündə hədəf kimi yox, digər hədəflərə çatmaq üçün alət kimi baxır. Əminəm ki, digər qurumlarda da bu məsələyə eyni yanaşma mövcuddur.

Bu günə qədər müxtəlif sahələrdə dövlət xidmətlərinin rəqəmsallaşmasının şahidi olmuşuq. Ədliyyə Nazirliyi də bu baxımdan istisna deyil. Lakin bu prosesin daha da dərinləşməsi və rəqəmsallaşmaya yeni nəfəs verilməsi 2026-cı il tarixində iki mühüm sənədin qəbul olunması ilə baş tutub.

Bunlardan biri birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Rəqəmsal İnkişaf Şurasının yaradılması ilə bağlı cənab Prezidentin Fərmanı, digəri isə Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planıdır. Bu mühüm sənədlər sayəsində rəqəmsallaşma prosesi daha da dərinləşərək bu sahədə yeni hədəflər müəyyən edilib.

Bu hədəflər bilavasitə iqtisadiyyata əlavə dəyərin qatılması, idarəetmənin səmərələşdirilməsi və data əsaslı qərarların qəbul edilməsi məqsədlərinə xidmət etməlidir. Düşünürəm ki, ən vacib məqsədlərdən biri kimi rəqəmsallaşma vətəndaş məmnunluğunun təmin edilməsinə töhfə verməlidir. Ədliyyə Nazirliyində bu günə qədər həyata keçirilən və bundan sonra da həyata keçiriləcək rəqəmsal layihələr məhz bu məqsədlərə xidmət edir.

Ədliyyə Nazirliyində rəqəmsallaşmanın tarixi 15 illik dönəmi əhatə edir. Bu, ilk olaraq notariat xidmətlərinin rəqəmsallaşdırılması, elektron notariatdan başlayıb. Lakin biz demək olar ki, fəaliyyət istiqamətlərimizin bütün sahələrində yeni rəqəmsal layihələrin həyata keçirilməsinə başlamışıq.

İcra sahəsində elektron icra informasiya sistemi yenidən qurulub və bu informasiya sistemi əsasında "Mobil icra" tətbiqi istifadəyə verilib. Artıq bu tətbiqin 30 mindən çox aktiv istifadəçisi var. Eyni zamanda icra məqsədləri üçün tərəfimizdən elektron hərrac informasiya sistemi istifadəyə verilib. Elektron hərrac informasiya sistemi bütövlükdə hərrac prosesinin şəffaflaşdırılması və daha da əlçatan edilməsinə xidmət edən vacib informasiya sistemlərindən biridir.

Bundan əlavə, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirmək səlahiyyətimiz var və bu səlahiyyət çərçivəsində də bələdiyyələrin gəlir və xərc portalını formalaşdırmışıq.

Eyni zamanda notariat sahəsində, xüsusilə "Mobil notariat" üzərindən geniş xidmətlər göstərməkdəyik. Hazırda "Mobil notariat" tətbiqinin 1,8 milyon aktiv istifadəçisi var. Tətbiqdəki xidmətlərin Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üzrə Fəaliyyət Planına uyğun olaraq, "mygov" platformasına keçirilməsi nəzərdə tutulub və hazırda bu prosesi həyata keçirməkdəyik. "Mobil notariat" tətbiqində olan 13 xidmət artıq "mygov" üzərindən həyata keçirilir.

Bununla yanaşı, vətəndaşlıq vəziyyəti aktlarının da rəqəmsallaşdırılması istiqamətində bir sıra addımlar atmışıq və bunlardan doğum, nikah, ölüm, vətəndaşlıq vəziyyəti və ailə tərkibi ilə bağlı arayışların verilməsini də "mygov" üzərindən həyata keçiririk.

Düşünürəm ki, bizim fəaliyyətimizin ən vacib istiqamətlərindən biri datanın təmizlənməsidir, çünki bir çox dövlət qurumlarına münasibətdə Ədliyyə Nazirliyinin məlumat bazaları, xüsusən Əhalinin Dövlət Reyestri ilkin mənbə məlumatı rolunda çıxış edir. Biz ilkin mənbə məlumatlarının mübadiləsi çərçivəsində 42 dövlət qurumu ilə inteqrasiya həyata keçiririk. Həmin dövlət qurumlarının xidmətləri bilavasitə bu ilkin mənbə məlumatlarının təmizliyindən asılıdır. Hazırda FİN kod əsaslı olan məlumatların 95%-nin təmizliyinə nail ola bilmişik.

Bununla yanaşı, süni intellekt əsaslı həllər də istifadəyə verməkdəyik və bu əsasən notariat sahəsindədir. Əmlakın qiymətləndirilməsi üçün süni intellekt əsasında fəaliyyət göstərən yeni bir alət istifadəyə vermişik ki, vətəndaşlar notariuslara alqı-satqı məqsədilə gedəndə öncədən əmlakın dəyərini müəyyən edə bilsinlər.

Qeyd etdiyim kimi, artıq bir sıra layihələri həyata keçiririk. Bundan sonra da bu istiqamətdə işlərimizi davam etdirəcəyik. Bu fikrin də altından xüsusilə xətt çəkmək istəyirəm ki, bütün rəqəmsal layihələrimiz adlarını çəkdiyim iki mühüm sənəddə (Red. - Azərbaycan Respublikasında rəqəmsallaşma, elektron hökumət, süni intellekt və innovasiya sahələrində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı) müəyyən edilmiş o üç məqsədə xidmət edəcək.

Nazir Fərid Əhmədov Xankəndi şəhərində vətəndaşları qəbul edib





Ədliyyə naziri Fərid Əhmədov 2 oktyabr tarixində Xankəndi şəhərində vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl nazir Xankəndi Mədəniyyət Mərkəzində Ümummilli Lider Heydər Əliyevin büstünü ziyarət edib və önünə gül dəstəsi qoyub.

Qəbulda Laçın, Şuşa, Ağdərə, Xocalı, Xocavənd rayonlarından və Xankəndi şəhərindən ümumilikdə 18 vətəndaşın ədliyyə fəaliyyəti ilə, eləcə də ədliyyə orqanlarında işə qəbulla bağlı müraciətləri dinlənilib. Vətəndaşların müraciətlərində qaldırılan məsələlərin bir qismi yerində müsbət həllini tapıb. Əlavə araşdırma tələb edən digər müraciətlərə isə mövcud qanunvericiliyin tələblərinə uyğun şəkildə baxılması ilə bağlı Nazirliyin aidiyyəti struktur qurumlarının rəhbər şəxslərinə müvafiq tapşırıqlar verilib.

Qeyd edək ki, qəbul mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən həyata keçirilib.

Ədliyyə Nazirliyinin ”881” Çağrı Mərkəzində oktyabr ayında xidmət səviyyəsi 94 faiz olub

Ədliyyə Nazirliyinin ”881” Çağrı Mərkəzi müraciətlərin obyektiv araşdırılması və cavablandırılması, fəaliyyətin təkmilləşdirilməsi üçün təhlillərin aparılması və vətəndaş məmnunluğunun artırılmasına xidmət edir.

Çağrı Mərkəzi iş vaxtı ərzində fasiləsiz olaraq Nazirliyin bütün fəaliyyət sahələri üzrə vətəndaşların müraciətlərinin cavablandırılmasını və yönləndirilməsini həyata keçirir.

Oktyabr ayı ərzində ”881” Çağrı Mərkəzinə məhkəmə qərarlarının icrası, notariat, qeydiyyat, penitensiar sahə, bələdiyyələrin fəaliyyəti, məhkəmə ekspertizası, probasiya və digər aidiyyəti sahələr üzrə daxil olan 19.337 müraciətdən 19.095-i cavablandırılıb. Vətəndaşlara göstərilən xidmət səviyyəsi (daxil olan zənglərin 30 saniyə ərzində cavablandırmaya qəbul faizi) 94 faiz olub, habelə vətəndaş müraciətləri ilə bağlı orta xidmət müddəti 1 dəqiqə 55 saniyə təşkil edib.

Bundan başqa, Çağrı Mərkəzində müraciətlərin birbaşa cavablandırılması ilə yanaşı ən son innovativ həlləri əks etdirən proqram təminatı vasitəsilə interaktiv səsli menyu, ”geriyə zəng” və ”zəng sifarişi” xidmətləri ilə ay ərzində 242 itirilmiş zənglə əks-əlaqə yaradılıb və qeyri-iş günlərində müraciət edən 465 vətəndaşın suallarının cavablandırılması təmin edilib.



Xidmət keyfiyyətinin dəyərləndirilməsi məqsədilə zəng bitdikdən sonra Çağrı Mərkəzi tərəfindən vətəndaşlara SMS göndərilir. Vətəndaşlar həmin SMS-dəki linkə daxil olub qısa sualları cavablandıraraq və əlavə şərh yazaraq göstərilən xidməti qiymətləndirə bilərlər.

Ədliyyə Nazirliyi Çağrı Mərkəzinin inkişaf etdirilməsi, qanunvericiliyin tələblərinə və müasir standartlara uyğun təşkili, vətəndaş məmnunluğunun, operativliyin və göstərilən xidmətin keyfiyyətinin artırılması üçün davamlı olaraq tədbirlər həyata keçirir.

Bölgələrdə yaşayan vətəndaşlar üçün videoqəbullar keçirilib







Ədliyyə Nazirliyi vətəndaş məmnunluğunun artırılması, ədliyyə orqanlarına əlçatanlığın təmin olunması, regionlarda yaşayan vətəndaşların müraciətlərinə operativ və yerində baxılması məqsədilə mütəmadi olaraq videoqəbullar təşkil edir.

Nazirliyin Sənəd dövriyyəsi və vətəndaşların müraciətləri ilə iş idarəsi və





regional ədliyyə idarələrinin təşkilatçılığı ilə oktyabrın 26-da ədliyyə nazirinin müavini - Penitensiar xidmətin rəisi Mirsaleh Seyidov tərəfindən Bərdə, Şəki, Sumqayıt və Xaçmaz regional ədliyyə idarələri ilə birlikdə, oktyabrın 27-də ədliyyə nazirinin müavini Mübariz Əhmədov tərəfindən Şəki, İmişli, Gəncə, Şəmkir, Göyçay, Bərdə, Xaçmaz, Lənkəran regional ədliyyə idarələri ilə, oktyab-



rın 29-da isə ədliyyə nazirinin müavini Abiddin Hüseynov tərəfindən Sumqayıt, Bərdə, Şəmkir və Gəncə regional ədliyyə idarələri ilə həmin qurumların yurisdiksiyalarına daxil olan rayonların sakinləri üçün videoqəbullar keçirilib.

Eyni zamanda oktyabr ayı ərzində



Nazirliyin Notariat, qeydiyyat və reyestr baş idarəsi, Məhkəmə Ekspertizası Mərkəzi, İnsan resursları idarəsi, Bələdiyyələrlə iş baş idarəsi, İcra xidməti və Tibb baş idarəsinin rəhbərliyi tərəfindən regional ədliyyə idarələri ilə birgə onların yurisdiksiyalarına daxil olan rayonların sakinləri üçün videoqəbullar keçirilib.

Videoqəbullarda Ədliyyə Nazirliyinin rəhbərliyi tərəfindən nazirliyin fəaliyyət istiqamətləri ilə bağlı ümumilikdə 24 vətəndaşın, struktur qurumların rəhbərləri tərəfindən isə 55 vətəndaşın müraciəti dinlənilib, vətəndaşlara qanunvericiliyin tələbləri ətraflı izah olunub və qəbul zamanı təqdim edilmiş müraciətlər zəruri tədbirlərin görülməsi üçün nəzarətə götürülüb.

Regionlarda yaşayan vətəndaşlar videoqəbullarda iştirak etmək üçün qebul@justice.gov.az elektron poçt ünvanına və ya Nazirliyin regional ədliyyə idarələrinə müraciət etməklə qəbula yazıla bilərlər.



”Bir Ömrün Konstitusiyası” sənədli filminin Bakı və Naxçıvanda təqdimat mərasimləri keçirilib













Müstəqil Azərbaycanın ilk milli Konstitusiyasının hazırlanma tarixindən bəhs edən ”Bir Ömrün Konstitusiyası” sənədli filminin Bakı və Naxçıvan şəhərlərində təqdimat mərasimləri keçirilib.

Müstəqilliyin Bərpası Günü ərəfəsində təşkil olunan təqdimat mərasimlərində dövlət rəsmiləri, millət vəkilləri, digər qonaqlar və ədliyyə könüllüləri iştirak ediblər.

Filmdə Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın ilk milli Konstitusiyasının hazırlanmasında müstəsna rolu, milli dövlətçilik ənənələrinin formalaşdırılması və müstəqil Azərbaycanın hüquqi əsaslarının möhkəmləndirilməsi istiqamətində görülən işlər əks olunub.

Bakıda keçirilən tədbirin rəsmi hissəsində Azərbaycan Respublikası ədliyyə nazirinin müavini Abiddin Hüseynov, Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini Səadət Yusifova və Gənclər Fondunun icraçı direktoru vəzifəsini icra edən Yusif Vəliyev çıxış ediblər.

Naxçıvanda keçirilən təqdimat mərasimində isə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli, Azərbaycan Respublikası ədliyyə nazirinin müavini Abiddin Hüseynov və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Arzu Abdullayev çıxış ediblər.

Çıxışlarda Konstitusiyanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində, hüquqi dövlət quruculuğunda və konstitusion dəyərlərin qorunmasında mühüm rolu vurğulanıb.

Təqdimat mərasimləri milli dövlətçilik tariximizin təbliği, tarixi irsimizin qorunması və gənc nəslin hüquqi dünyagörüşünün formalaşdırılması baxımından əhəmiyyət kəsb edir.

Şəhid ədliyyə qulluqçusu Ruhin Xəlilovun xatirəsi ehtiramla anılıb

Vətən müharibəsində könüllü iştirak edən və 2020-ci il oktyabrın 21-də döyüşlərdə şəhid olan Ədliyyə Nazirliyinin İcra xidmətinin məsləhətçisi I dərəcəli ədliyyə qulluqçusu Ruhin Xəlilovun əziz xatirəsi anılıb.

Bununla əlaqədar Ədliyyə Nazirliyinin rəhbərliyi və kollektivi İkinci Fəxri xiyabanda şəhidin məzarını ziyarət edib.

Qubadlı rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə ucalan Ruhin Xəlilov ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə ”Vətən uğrunda”, ”Cəsur döyüşçü”, ”Cəbrayılın azad olunmasına görə” və ”Qubadlının azad olunmasına görə” medalları və 3-cü dərəcəli ”Vətənə xidmətə görə” ordeni ilə təltif edilib.









Penitensiar müəssisələrdə distant tibbi müayinə sisteminin tətbiqinə başlanılıb





Ədliyyə Nazirliyinin Tibb baş idarəsi tərəfindən penitensiar müəssisələrdə məhkum və həbs edilmiş şəxslərə göstərilən tibbi xidmətlərin keyfiyyətinin və əlçatanlığının artırılması istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində distant tibbi müayinə sisteminin tətbiqinə başlanılıb.



Sistem vasitəsilə penitensiar müəssisələrdə tibb-sanitar hissələrinin həkimləri zərurət yarandıqda müxtəlif ixtisaslar üzrə həkim-mütəxəssislərlə distant əlaqə yaradaraq pasiyentin tibbi vəziyyətinin operativ qiymətləndirilməsini və müvafiq tibbi taktikanın müəyyənləşdirilməsini təmin edə bilirlər. Distant müayinələr psixiatriya və dermatologiya başda olmaqla müxtəlif ixtisaslar üzrə həyata keçirilir.

Hazırda distant tibbi müayinə pilot qaydada 4 penitensiar müəssisədə tətbiq edilir.

Distant tibbi müayinə sisteminin tətbiqi penitensiar müəssisələrdə səhiyyə xidmətlərinin müasir yanaşmalar əsasında təkmilləşdirilməsinə, tibbi yardımın operativliyinin və səmərəliliyinin artırılmasına, məhkum və həbs edilmiş şəxslərin ixtisaslı tibbi yardıma çıxış imkanlarının genişləndirilməsinə və tibbi xidmətlərin davamlılığının təmin edilməsinə şərait yaradır.

Ədliyyə Nazirliyinin daha bir neçə xidməti ”mygov”a inteqrasiya edilib

Rəqəmsal dövlət xidmətlərinin vahid platformada təqdim olunması məqsədilə ”mygov”da Ədliyyə Nazirliyinin notariat xidmətlərinin əhatə dairəsi genişləndirilib.



Artıq vətəndaşlar daşınmaz əmlak üzrə səlahiyyətlərini digər şəxsə həvalə etmək üçün ”mygov” üzərindən ”Daşınmaz əmlaka sərəncam etibarnaməsinin verilməsi” xidmətindən istifadə edə bilərlər. Buraya əmlakın özgəninkiləşdirilməsi, ipotekaya verilməsi və digər sərəncam əməliyyatları üzrə səlahiyyətlərin digər şəxsə həvalə edilməsi daxildir.

”Daşınmaz əmlaka sərəncam ərizəsi” xidməti isə daşınmaz əmlak üzərində müəyyən hüquq və səlahiyyətlərin digər şəxsə ötürülməsinə mülkiyyətçinin razılığının elektron qaydada rəsmiləşdirilməsini təmin edir.

Mülkiyyətçi, həmçinin ”Yaşayış sahəsində qeydiyyata alınma ərizəsi” xidməti vasitəsilə digər şəxslərin həmin ünvanda qeydiyyata alınmasına razılığını ”mygov”da elektron qaydada təsdiq edə bilər.

Bundan əlavə, ”Vərəsəlik etibarnaməsinin verilməsi” xidməti vasitəsilə vətəndaşlar vərəsəlik işləri üzrə sədlərin toplanması və miras əmlakın rəsmiləşdirilməsi üçün səlahiyyətlərini digər şəxsə elektron qaydada həvalə edə bilərlər.

Müxtəlif məzmunlu ərizələrin elektron qaydada rəsmiləşdirilməsinə imkan verən daha iki xidmət də ”mygov” platformasına inteqrasiya edilib.

Vətəndaşlar ”Sərbəst məzmunlu ərizə” xidməti vasitəsilə ”mygov”da notariat ərizələri kimi təqdim olunmayan digər ərizə növləri ilə bağlı müraciət ünvanlaya bilərlər. Bunun üçün əvvəlcə ərizənin ünvanlanacağı qurum seçilir, daha sonra ərizə mətni və zəruri sənədlər sistemə yüklənir. Məlumatların doğruluğu təsdiqləndikdən və ödəniş prosesi tamamlandıqdan sonra müraciət elektron qaydada təqdim olunur.

Vətəndaş daha əvvəl təqdim etdiyi ərizədən elektron qaydada ”Ərizədən imtina ərizəsi” xidməti vasitəsilə imtina edə bilər. Bunun üçün imtina ediləcək ərizə seçilir, imtina səbəbi qeyd olunur və məlumatların doğruluğu yoxlanılır. Bütün mərhələlər yekunlaşdıqdan sonra müraciət aidiyyəti quruma elektron qaydada göndərilir.

”Əhalinin sağlamlığının qorunması haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən ödənişsiz və ya güzəştli dərman vasitələrinin vətəndaşın etibar etdiyi digər şəxs tərəfindən əldə olunması üçün ”Dərmanların alınması üçün etibarnamənin verilməsi” xidməti də ”mygov” platformasına inteqrasiya edilib. Xidmət üzrə əvvəlcə vətəndaşın güzəştli dərman almaq hüququ sistem üzərindən yoxlanılır, daha sonra vətəndaşın məlumatlarının doğruluğu təsdiqlənir. Ödəniş mərhələsi başa çatdıqdan sonra müraciət elektron qaydada təqdim olunur.

Qeyd olunan bütün xidmətlər üzrə vətəndaşların müraciətləri notariat qaydasında rəsmiləşdirilir.

Vətəndaşlar sözügedən xidmətlərdən həm my.gov.az portalı, həm də ”mygov” mobil tətbiqi vasitəsilə yararlana bilərlər.

Qeyd edək ki, bununla da Ədliyyə Nazirliyinin müxtəlif həyat hadisələri üzrə 5, notariat fəaliyyəti ilə bağlı 16 xidməti, eləcə də tərcümə və fiziki şəxslərə aid icra işləri barədə məlumatların təqdim edilməsi xidmətləri ”mygov” platformasına inteqrasiya olunub.

Ədliyyə Akademiyasında dövlət və qeyri-dövlət qurumlarının əməkdaşları üçün ixtisasartırma təlimləri keçirilib

Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasında dövlət və qeyri-dövlət qurumlarının əməkdaşlarının peşə hazırlığının artırılması məqsədilə ixtisasartırma təlimləri keçirilib.

21 qrup üzrə keçirilən təlimlərdə ümumilikdə 266 nəfər iştirak edib.

Təlim proqramı çərçivəsində iştirakçılar ”Normayaratma fəaliyyəti”, ”Əmək qanunvericiliyinin praktiki məsələləri”, ”İnzibati icraat qanunvericiliyi”, ”Pensiya qanunvericiliyinin nəzəri və praktiki problemləri”, ”Hüquqi yazı”, ”Tədqiqat metodları”, ”Rəqabət qanunvericiliyi” və ”Müqavilə hüququ” mövzularında mühazirələr dinləyib, həmçinin praktiki məşğələlərdə iştirak ediblər.

Proqramın sonunda imtahandan müvəffəqiyyətlə keçən iştirakçılara Ədliyyə Akademiyası tərəfindən şəhadətnamələr təqdim olunub. Təlimlərin nəticələrinə dair yekun hesabatlar isə aidiyyəti qurumlara təqdim ediləcək.

Qeyd edək ki, ”Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununun tələblərinə uyğun olaraq, Konstitusiya Məhkəməsi, Ali Məhkəmə, Məhkəmə-Hüquq Şurası və İnsan hüquqları üzrə müvəkkil aparatlarında, habelə 2-ci və 5-ci kateqoriya dövlət orqanlarında ali hüquq təhsili tələb edən vəzifələrdə qulluq keçən dövlət qulluqçularının mütəmadi olaraq Ədliyyə Akademiyasında peşə hazırlığına və ixtisasartırma təlimlərinə cəlb edilməsi dövlət idarəçiliyində səmərəliliyin və hüquqi xidmətlərin keyfiyyətinin artırılmasına xidmət edir.



Xüsusi icra məmuru peşəsi üzrə ilkin icbari hazırlıq başlayıb



Xüsusi icra məmuru peşəsi üzrə müsahibə mərhələsindən uğurla keçmiş namizədlərin ilkin icbari hazırlığı 1 oktyabr 2026-cı il tarixindən başlanılıb. Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasında keçirilən ilkin icbari hazırlığın təxminən 3 ay davam etməsi nəzərdə tutulur.

Hazırlıq proqramı xüsusi icra məmuru kimi fəaliyyət göstərmək üçün tələb olunan hüquqi biliklərin, praktiki bacarıqların və peşə davranışı vərdişlərinin formalaşdırılmasına yönəlib. Proqramda məhkəmə-icra sistemi, icra hüququ, icra sənədləri, icra icraatının başlanması, icra məmurunun prosessual hərəkətləri və sənədləri, məcburi icra tədbirləri, müxtəlif kateqoriyalı icra sənədlərinin icrası, ”Elektron icra” informasiya sistemindən istifadə, şikayət və nəzarət mexanizmləri, təhlükəsizlik, ofisin idarə edilməsi, maliyyə, depozit və hesabatlılıq kimi əsas istiqamətlər əhatə olunur.

Tədris prosesində nəzəri dərslərlə yanaşı, praktiki məşğələlər, real icra proseslərindən kazusların həlli, sənəd hazırlama tapşırıqları, qərar, akt, protokol və təqdimat layihələrinin tərtibi, ”Elektron icra” sistemi üzrə laborator məşğələlər, icra tədbirlərinin simulyasiyaları nəzərdə tutulur. Bu yanaşmanın məqsədi namizədlərin yalnız qanunvericiliyi bilməsini deyil, həm də icra sənədinin tələbini düzgün qiymətləndirməsini, müvafiq icra tədbirini seçməsini, tərəflərlə peşəkar ünsiyyət qurmasını və icra prosesini qanuni, əsaslandırılmış və effektiv şəkildə aparmasını təmin etməkdir.

Hazırlıq proqramı beynəlxalq mütəxəssislərin iştirakı ilə tərtib olunub. Eyni zamanda, onların Ədliyyə Nazirliyinin məsul əməkdaşları ilə birlikdə təlimçi qismində iştirakı da nəzərdə tutulub.

İlkin icbari hazırlığı uğurla başa vuran namizədlər qiymətləndirmədən keçəndən sonra staj mərhələsinə cəlb olunacaqlar. Staj müddətində onlar təlim zamanı əldə etdikləri bilik və bacarıqları real icra şəraitində tətbiq edəcəklər və stajın nəticələrinə uyğun olaraq onların xüsusi icra məmuru kimi fəaliyyətə başlamaları ilə bağlı növbəti prosedurlar həyata keçiriləcək.





Ədliyyə Nazirliyinin Probasiya xidməti ilə Sumqayıt Dövlət Universiteti birgə dəyirmi masa keçirib

Oktyabrın 19-da Ədliyyə Nazirliyinin Probasiya xidməti və Sumqayıt Dövlət Universitetinin (SDU) birgə təşkilatçılığı ilə SDU-da "Probasiya nəzarətində olan şəxslərin sosial adaptasiya və reabilitasiyası: multidissiplinar əməkdaşlıq" mövzusunda dəyirmi masa keçirilib.

Tədbirdə Probasiya xidmətinin rəisi Vüqar Ağayev, SDU-nun rektoru Nurəli Yusifbəyli, Sosial Xidmətlər Agentliyinin və Dövlət Məşğulluq Agentliyinin rəhbər şəxsləri, aidiyyəti yerli qurumların nümayəndələri, professor-müəllim heyəti, tələbələr, sosial işçilər və psixoloqlar iştirak ediblər.

İki qurum arasında imzalanmış əməkdaşlıq haqqında Memorandum çərçivəsində keçirilən tədbirin məqsədi probasiya sahəsində sosial adaptasiya və



reabilitasiya üzrə multidissiplinar fəaliyyətin təşviqi, elmi-praktiki əməkdaşlığın genişləndirilməsi və gələcək birgə fəaliyyət istiqamətlərinin müzakirəsi olub.

Tədbirdə probasiya nəzarətində olan şəxslərin sosial adaptasiyası və reabilitasiyası, bu prosesində könüllülərin iştirakı, tələbələrin probasiya sahəsində bilik və bacarıqlarının inkişafı, təcrübə və elmi tədqiqat imkanları, gələcək əməkdaşlıq perspektivləri, eləcə də müasir yanaşmaların tətbiqi məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Tədbir çərçivəsində Probasiya xidmətinin psixoloqları probasiya nəzarətində olan şəxslərlə aparılan sosial-psixoloji reabilitasiya işləri, zərərçəkmişlə məhkum arasında mediasiya (bərbaedici ədliyyə) üzrə görülən tədbirlər barədə təqdimatla çıxış ediblər, universitetin professor-müəllim heyətinin mövzu ilə bağlı çıxışları dinlənilib.

Probasiya nəzarətində olan şəxslərin cəmiyyətə reinteqrasiyası ilə bağlı seminar keçirilib

Ədliyyə Nazirliyinin Probasiya xidməti Azərbaycan Universitetində seminar keçirib.

Tədbir iki qurum arasında imzalanmış əməkdaşlıq haqqında Memorandum çərçivəsində təşkil edilib.

Tədbirdə hər iki qurumun rəhbər şəxsləri və əməkdaşları, Sosial Xidmətlər Agentliyinin və Dövlət Məşğulluq Agentliyinin nümayəndələri, mediatorlar, sosial işçilər, psixoloqlar və tələbələr iştirak ediblər.

Seminarda ölkəmizdə probasiya sahəsində aparılan islahatlar, probasiya fəaliyyətində çoxsahəli yanaşmanın tətbiqi, o cümlədən probasiya nəzarətində olan şəxslərin sosial müdafiəsi və məşğulluq imkanlarının genişləndirilməsi, zərərçəkmişlə məhkum arasında mediasiya üzrə görülən tədbirlər barədə məlumat verilib.

Tədbirdə Probasiya xidmətinin və Sosial Xidmətlər Agentliyinin nümayəndələri, eləcə də universitetin professor-müəllim heyəti probasiya fəaliyyətinin praktiki aspektləri barədə çıxış ediblər. Probasiya nəzarətində olan şəxslərin sosial-psixoloji vəziyyətinin yaxşılaşdırılması, təhsil və məşğulluq imkanlarının genişləndirilməsi və bu tədbirlərin yeni cinayət törətmə riskinin azaldılmasında rolu diqqətə çatdırılıb. Bu prosesə könüllülərin cəlb edilməsinin təşviqi və tələbələrin Probasiya xidmətində təcrübə keçmələrinin təşkili məsələləri vurğulanıb.

Tədbir çərçivəsində, həmçinin Probasiya xidmətinin rəisi Vüqar Ağayevlə Azərbaycan Universitetinin rektoru Səadət Əliyeva arasında görüş keçirilib. Görüşdə probasiya sahəsində elmi-praktiki əməkdaşlığın genişləndirilməsi, tələbələrin bu istiqamətdə bilik və bacarıqlarının artırılması, probasiya sahəsində beynəlxalq ekspertlərin və alimlərin cəlb edilməsi ilə birgə maarifləndirici tədbirlərin, konfransların təşkili və gələcək əməkdaşlıq perspektivləri müzakirə olunub.

QEYRİ-KOMMERSİYA TƏŞKİLATLARININ REYESTR MƏLUMATI

"Sağlam ailə, Sağlam cəmiyyyət" ictimai birliyi

Qeydiyyat tarixi: 29.09.2009-cu il
Qeydiyyat N-si: 1109-Q28-2774
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi: Nəbili Emin Ağahüseyn oğlu
Dəyişiklik: 01.10.2026-cı il tarixdə qeydə alınıb

Azərbaycan Respublikası Stolüstü Tennis Federasiyası ictimai birliyi

Qeydiyyat tarixi: 10.09.1993-cü il
Qeydiyyat N-si: 417
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi: Mustafayev Şahin Abdulla oğlu
Dəyişiklik: 02.10.2026-cı il tarixdə qeydə alınıb

"Demokratik Cəmiyyət və Qadın Hüquqlarının Müdafiəsi" ictimai birliyi

Qeydiyyat tarixi: 19.02.2009-cu il
Qeydiyyat N-si: 1109-Q26-2669
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi: Abdullayeva Mehriban Əli qızı
Dəyişiklik: 05.10.2026-cı il tarixdə qeydə alınıb

"İqtisadi və Sosial Araşdırmalara Yardım"ictimai birliyi

Qeydiyyat tarixi: 21.10.2016-cı il
Qeydiyyat N-si: 1116-Q56-3410
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi: Əhmədov Elşan Niyazi oğlu
Dəyişiklik: 05.10.2026-cı il tarixdə qeydə alınıb

"Azəri Gənclər Alyansı" ictimai birliyi

Qeydiyyat tarixi: 25.05.2007-ci il
Qeydiyyat N-si: 1107-Q18-2388
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi: Məmmədli Leyla Yadigar qızı
Dəyişiklik: 06.10.2026-cı il tarixdə qeydə alınıb

"Vətən Fədailərinin Hüquqlarının Müdafiəsi" ictimai birliyi

Qeydiyyat tarixi: 20.11.2010-cu il
Qeydiyyat N-si: 1110-Q33-2898
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi: Quliyev İsaabdulla Dadaş oğlu
Dəyişiklik: 06.10.2026-cı il tarixdə qeydə alınıb

"Gənc Musiqiçilərə Dəstək" ictimai birliyi

Qeydiyyat tarixi: 13.06.2019-cu il
Qeydiyyat N-si: 1119-Q68-3707
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi: Əliyeva Nübar Təvəkkül qızı
Dəyişiklik: 06.10.2026-cı il tarixdə qeydə alınıb

"Reklam və Marketinq Sahəsinin İnkişafına Dəstək" ictimai birliyi

Qeydiyyat tarixi: 30.05.2023-cü il
Qeydiyyat N-si: 1123-Q82-4189
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi: Mütəllimova Xəyalə Elman qızı
Dəyişiklik: 07.10.2026-cı il tarixdə qeydə alınıb

Aqrar Sığorta Fondu

Qeydiyyat tarixi: 15.01.2020-ci il
Qeydiyyat N-si: 1120-QK10-0067
Azərbaycan Respublukasının kənd təsərrüfatı nazirinin 11.03.2026-cı il tarixli 3-22/3-1-264/2026 nömrəli və 17.09.2026-cı il tarixli 3-22/3-1-1114/2026 nömrəli əmri və digər sənədlər
təmsilçisi: Sadıqov Fuad Həşim oğlu
Dəyişiklik: 07.10.2026-cı il tarixdə qeydə alınıb

"Ekoloji və Aqrar İnkişaf" ictimai birliyi

Qeydiyyat tarixi: 11.05.1999-cu il
Qeydiyyat N-si: 1122
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi: Hacıyev Yalçın Cahangir oğlu
Dəyişiklik: 08.10.2026-cı il tarixdə qeydə alınıb

"Vətən Uğrunda Şəhid Ailələri və Milli Qəhrəmanlar"ictimai birliyi

Qeydiyyat tarixi: 18.02.2005-ci il
Qeydiyyat N-si: 1105-Q3-1699
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi: Əsgərov Hikmət Əsgər oğlu
Dəyişiklik: 09.10.2026-cı il tarixdə qeydə alınıb

"Başlıbelin İnkişafına Dəstək" ictimai birliyi

Qeydiyyat tarixi: 30.06.2003-cü il
Qeydiyyat N-si: 1122-Q79-4034
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi: Həşimov Vüqar Şükür oğlu
Dəyişiklik: 09.10.2026-cı il tarixdə qeydə alınıb

"Təbiət və Cəmiyyət" ictimai birliyi

Qeydiyyat tarixi: 31.01.2007-ci il
Qeydiyyat N-si: 1107-Q16-2298
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən hazırkı hüquqi ünvanı: Bakı şəhəri Nəsimi rayonu, Hüseyn Seyidzadə küçəsi, ev 5, mənzil 20;
qanuni təmsilçisi: İsmayılov İsrafil Qayvalı oğlu
Dəyişiklik: 09.10.2026-cı il tarixdə qeydə alınıb

"Gənc Fəallar və Liderlər Alyansı" ictimai birliyi

Qeydiyyat tarixi: 28.09.2005-ci il
Qeydiyyat N-si: 1105-Q5-1898
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi: Musazadə Əminə Novruz qızı
Dəyişiklik: 09.10.2026-cı il tarixdə qeydə alınıb

"Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyası ictimai birliyi

Qeydiyyat tarixi: 12.08.2011-ci il
Qeydiyyat N-si: 1111-Q37-2974
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi: Abbasov Elvin Miribadət oğlu
Dəyişiklik: 12.10.2026-cı il tarixdə qeydə alınıb

"Azərbaycan Ukrayna Konqresi" ictimai birliyi

Qeydiyyat tarixi: 29.05.2012-ci il
Qeydiyyat N-si: 1112-Q39-3032
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi: Osadçenko Yuriy Leonidoviç
Dəyişiklik: 12.10.2026-cı il tarixdə qeydə alınıb

"Azərbaycan Su İdman Federasiyası" ictimai birliyi

Qeydiyyat tarixi: 26.12.2006-cı il
Qeydiyyat N-si: 1106-Q14-2262
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi: Əhmədov Vüqar Cəbrayıl oğlu
Dəyişiklik: 12.10.2026-cı il tarixdə qeydə alınıb

"Ze Amerikan Cuiş Coynt Distribyuşn Komiti, İnk" təşkilatının Azərbaycan Respublikasındakı nümayəndəliyi

Qeydiyyat tarixi: 22.12.1999-cu il
Qeydiyyat N-si: 25
Baş təşkilatın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi: Qaraqaşlı Lalə Niyazi qızı
Dəyişiklik: 14.10.2026-cı il tarixdə qeydə alınıb

"Regional Sosial-İqtisadi İnkişaf üzrə Maarifləndirmə" ictimai birliyi

Qeydiyyat tarixi: 21.10.2016-cı il
Qeydiyyat N-si: 1116-Q56-3412
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi: Məhərrəmova Elnarə Aşıq qızı
Dəyişiklik: 14.10.2026-cı il tarixdə qeydə alınıb

"Qürur" şəhid ailələri xeyriyyə ictimai birliyi

Qeydiyyat tarixi: 16.08.2000-ci il
Qeydiyyat N-si: 1314

Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi: Behbudova Naibə Abuzər qızı
Dəyişiklik: 14.10.2026-cı il tarixdə qeydə alınıb

"Azərbaycan Alpinizm Federasiyası" ictimai birliyi

Qeydiyyat tarixi: 31.08.2022-ci il
Qeydiyyat N-si: 1122-Q80-4090
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi: Səmmədzadə Ağakərim Ağasəməd oğlu
Dəyişiklik: 15.10.2026-cı il tarixdə qeydə alınıb

"Koxlear İmplantlı Şəxslərə Sosial Yardım" ictimai birliyi

Qeydiyyat tarixi: 07.10.2022-ci il
Qeydiyyat N-si: 1122-Q80-4098
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi: Hüseynova Mehriban Süleymanov qızı
Dəyişiklik: 15.10.2026-cı il tarixdə qeydə alınıb

"Mülki Cəmiyyətə Doğru" ictimai birliyi

Qeydiyyat tarixi: 29.12.1999-cu il
Qeydiyyat N-si: 1211
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi: Bayramov Abil Nəzir oğlu
Dəyişiklik: 15.10.2026-cı il tarixdə qeydə alınıb

"Gənclərin Dostluq Şəbəkəsi" ictimai birliyi

Qeydiyyat tarixi: 02.07.2008-ci il
Qeydiyyat N-si: 1108-Q22-2537
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasənqanuni təmsilçisi: Quliyev İmaməddin Yaşar oğlu
Dəyişiklik: 15.10.2026-cı il tarixdə qeydə alınıb

"Azərbaycan Qış İdman Növləri Federasiyası" ictimai birliyi

Qeydiyyat tarixi: 12.08.2011-ci il
Qeydiyyat N-si: 1111-Q37-2975
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi: Nağıyev Fuad Hümbət oğlu
Dəyişiklik: 16.10.2026-cı il tarixdə qeydə alınıb

"Şəhid ailələrinə maddi və mənəvi dəstək" ictimai birliyi

Qeydiyyat tarixi: 31.01.2005-ci il
Qeydiyyat N-si: 1105-Q3-1686
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi: Həsənova Nəzakət Məcid qızı
Dəyişiklik: 22.10.2026-cı il tarixdə qeydə alınıb

"İnklüziv Cəmiyyət Naminə" Əlilliyi olan Şəxslərə Dəstək ictimai birliyi

Qeydiyyat tarixi: 24.12.2008-ci il
Qeydiyyat N-si: 108-Q24-2638
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi: Mahmudova Ramilə Rasim qızı
Dəyişiklik: 19.10.2026-cı il tarixdə qeydə alınıb

"Abadlıq-Sosial İnkişafa Dəstək" ictimai birliyi

Qeydiyyat tarixi: 29.12.2013-cü il
Qeydiyyat N-si: 1113-Q48-3243
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi: Cavadov Toğrul Seyran oğlu
Dəyişiklik: 19.10.2026-cı il tarixdə qeydə alınıb

"İdrak" elmin inkişafına dəstək ictimai birliyi

Qeydiyyat tarixi: 24.09.2010-cu il
Qeydiyyat N-si: 1110-Q33-2883
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi: Həsənov Mirintiqam Mir Bala oğlu
Dəyişiklik: 21.10.2026-cı il tarixdə qeydə alınıb

"Müharibə Veteranları və Beynəlmiləlçi Hərbiçilər" ictimai birliyi

Qeydiyyat tarixi: 21.11.2006-cı il
Qeydiyyat N-si: 1106-Q14-2235
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi: Qənizadə Əzizağa Tofiq oğlu
Dəyişiklik: 22.10.2026-cı il tarixdə qeydə alınıb

"Bir Könüllü" tələbələrin əməkdaşlığı ictimai birliyi

Qeydiyyat tarixi: 02.08.2019-cu il
Qeydiyyat N-si: 1119-Q69-3747
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi: Süleymanov Əli Şaiq oğlu
Dəyişiklik: 22.10.2026-cı il tarixdə qeydə alınıb

"Azərbaycan Strongmen Federasiyası" ictimai birliyi

Qeydiyyat tarixi: 31.01.2017-ci il
Qeydiyyat N-si: 1117-Q58-3466
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi: Quliyev Bəxtiyar Tofiq oğlu
Dəyişiklik: 22.10.2026-cı il tarixdə qeydə alınıb

"Gənc Novatorlar" gənclərin maarifləndirilməsi ictimai birliyi

Qeydiyyat tarixi: 29.06.2012-ci il
Qeydiyyat N-si: 1112-Q40-3057
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi: Həsənova Pərvin Oqtay qızı
Dəyişiklik: 22.10.2026-cı il tarixdə qeydə alınıb

"Azərbaycan Uşaqları" ictimai birliyi

Qeydiyyat tarixi: 16.07.1993-cü il
Qeydiyyat N-si: 398
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi: Ağazadə Kəmalə Yusif qızı
Dəyişiklik: 27.10.2026-cı il tarixdə qeydə alınıb

"Azərbaycan Maarifçi Xeyriyyə" ictimai birliyi

Qeydiyyat tarixi: 31.05.2005-ci il
Qeydiyyat N-si: 1105-Q4-1773
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi: Babayeva Kübra Kalba qızı
Dəyişiklik: 27.10.2026-cı il tarixdə qeydə alınıb

"Azərbaycan Nar İstehsalçıları və Assosiasiyası" ictimai birliyi

Qeydiyyat tarixi: 31.10.2016-cı il
Qeydiyyat N-si: 1116-Q57-3435
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi: Qaraşov Fərhad Arif oğlu
Dəyişiklik: 27.10.2026-cı il tarixdə qeydə alınıb

"Azərbaycan İxracatçılar Klubu" ictimai birliyi

Qeydiyyat tarixi: 31.10.2017-ci il
Qeydiyyat N-si: 1117-Q61-3537
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi: Abdullayev Yusif İkram oğlu
Dəyişiklik: 28.10.2026-cı il tarixdə qeydə alınıb

"Güvən" Xeyriyyə ictimai birliyi

Qeydiyyat tarixi: 07.10.2022-ci il
Qeydiyyat N-si: 1122-Q81-4103
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi: Bayramlı Nigar Rasim qızı
Dəyişiklik: 28.10.2026-cı il tarixdə qeydə alınıb

"Nizami-19" mənzil mülkiyyətçilərinin müştərək cəmiyyəti

Qeydiyyat tarixi: 01.07.2025-ci il
Qeydiyyat N-si: 1125-MM12-0358
İdarə heyətinin qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi: Əliyev Rövşən Əjdər oğlu
Dəyişiklik: 28.10.2026-cı il tarixdə qeydə alınıb

"Yasamal-90" mənzil mülkiyyətçilərinin müştərək cəmiyyəti

Qeydiyyat tarixi: 05.02.2026-cı il
Qeydiyyat N-si: 1126-MM13-0373
İdarə heyətinin qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi: Ələkbərov Əvəz Əkbər oğlu
Dəyişiklik: 28.10.2026-cı il tarixdə qeydə alınıb

"İnnovativ İnkişafa Dəstək" ictimai birliyi

Qeydiyyat tarixi: 19.02.2009-cu il
Qeydiyyat N-si: 1109-Q26-2687
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi: Əliyev Hümmət Ramazan oğlu
Dəyişiklik: 29.10.2026-cı il tarixdə qeydə alınıb

"Doğma yurda qayıdış" ictimai birliyi

Qeydiyyat tarixi: 21.11.2006-cı il
Qeydiyyat N-si: 1106-Q14-2259
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi: Hətəmov Səməd Əbdüləli oğlu
Dəyişiklik: 29.10.2026-cı il tarixdə qeydə alınıb

"Dəyər" inkişaf və maarifləndirməyə dəstək ictimai birliyi

Qeydiyyat tarixi: 21.10.2016-cı il
Qeydiyyat N-si: 1116-Q56-3409
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi: Nağıyev Elçin Raqub oğlu
Dəyişiklik: 29.10.2026-cı il tarixdə qeydə alınıb

"Gənc İstedadların Maariflənmələrinə və İnkişafına Dəstək" ictimai birliyi

Qeydiyyat tarixi: 06.12.2012-ci il
Qeydiyyat N-si: 1112-Q43-3124
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi: Manafov Elçin Əvəz oğlu
Dəyişiklik: 30.10.2026-cı il tarixdə qeydə alınıb

"Əbdürrəhimbəy Haqverdiyev Mərkəzi" ictimai birliyi

Qeydiyyat tarixi: 12.02.2016-cı il
Qeydiyyat N-si: 1116-Q54-3366
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi: Mələk-Abbas Eldar Tofiq oğlu
Dəyişiklik: 29.10.2026-cı il tarixdə qeydə alınıb

"Vətəndaş Təşəbbüsləri və İctimai Maarifləndirmə" ictimai birliyi

Qeydiyyat tarixi: 21.10.2016-cı il
Qeydiyyat N-si: 1116-Q55-3494
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi: Nağıyev Elşən Raqub oğlu
Dəyişiklik: 30.10.2026-cı il tarixdə qeydə alınıb

ELAN

Azadlıq Partiyasının ləğvi barədə qeyd 08.10.2026-cı il tarixdə qeyri-kommersiya qurumlarının dövlət reyestrinə daxil edilmişdir.

***

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən 28.03.2013-cü il tarixli 1113-N2-0004 nömrə ilə dövlət qeydiyyatına alınmış Birləşmiş Ərəb Əmirliklərinin hüquqi şəxsi olan Dubay Ticarət və Sənaye Palatasının ("Dubai Chamber of Commerce & Industry") Azərbaycan Respublikasındakı nümayəndəliyi ləğv edildiyini elan edir.
Kreditorlardan xahiş olunur ki, birinci elan dərc olunduqdan sonra 60 gün ərzində tələblərini aşağıda göstərilən ünvana bildirsinlər: Bakı şəhəri, Səbail rayonu, Nizami küçəsi, 90A.

***

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən 26.11.2015-ci il tarixli 1115-MM20019 nömrə ilə dövlət qeydiyyatına alınmış "Xətai-4" mənzil mülkiyyətçilərinin müştərək cəmiyyəti ləğv edildiyini elan edir.
Kreditorlardan xahiş olunur ki, birinci elan dərc olunduqdan sonra 60 gün ərzində tələblərini aşağıda göstərilən ünvana bildirsinlər:
Bakı şəhəri, Xətai rayonu, Məhəmməd Hadi küçəsi, ev 73A, mənzil 12

***

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Kollegiyasının 30.03.2015-ci il tarixli 1115-Q52-3235 nömrəli qərarı ilə dövlət qeydiyyatına alınmış Azərbaycan Respublikası Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqı ləğv olunduğunu elan edir.
Kreditorlardan xahiş olunur ki, birinci elan dərc olunduqdan sonra 60 gün ərzində təşkilata olan tələblərini aşağıda göstərilən ünvana bildirsinlər:
AZ1073, Bakı şəhəri, Nəsimi rayonu, Bülbül prospekti 18, 4-cü mərtəbə

***

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən 29.06.2018-ci il tarixli 1118-Q63-3593 nömrə ilə dövlət qeydiyyatına alınmış "Azərbaycan Somelye Gildiyası" İctimai Birliyi ləğv edildiyini elan edir.
Kreditorlardan xahiş olunur ki, bu elan dərc olunduqdan sonra 60 gün ərzində tələblərini aşağıda göstərilən ünvana bildirsinlər: Bakı şəhəri, Nəsimi rayonu, Neftçilər prospekti 153

Təsisçi: Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi
Buraxılışa məsul: Rasim Həsənov
Ünvan: Bakı-AZ 1073. İnşaatçılar pr-ti, 1. Tel: 510-10-01 (10607)
Qəzetdə qeyri-kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında məlumatlar dərc olunur. Qəzet ayda bir dəfə çıxır.
Reyestr N 769